# Milli-mənəvi dəyərlər insanı təkamülə aparan davranış qaydalarıdır

## *Xalqımızın ən böyük sərvətlərindən biri onun zəngin milli mədəni, maddi, ədəbi, dövlətçilik irsinə sahib olmasıdır*

**Milli-mənəvi dəyərlərimiz xalqımızın simasında zaman-zaman yaşamışdır. Bizi başqa xalqlardan, millətlərdən fərqləndirən də elə bir çox məqamda milli-mənəvi dəyərlərimiz, mədəniyyətimiz, mənəviyyatımızdır. Bu mənada Azərbaycan ailəsi də başqa ailələrdən fərqlənir. Ailələrimizdə böyüyə hörmət, ata-anaya sevgi, ehtiramla davranmaq, kiçiklərə qayğı, diqqət əsas göstəricilərdəndir. Bizim gələcək nəsillərə örnək olan əxlaq, tərbiyə simvolu, məhəbbət etalonu kimi daim hörmətlə anılan nümunəvi ailələrimiz çoxdur. Bu ailələr Azərbaycan xalqına sözün həqiqi mənasında böyük şəxsiyyətlər, dahilər bəxş etmişdir.**



Ümumiyyətlə götürsək hər bir xalqın qarşısında əsrlər, minilliklər boyu formalaşmış yüksək milli-mənəvi dəyərlərini, milli məfkurəsini pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin inkişafına təsir göstərmək, onun genetik yaddaşını, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi mühüm missiya durur. Azərbaycanda bu məsuliyyətli missiyanı məhz ulu öndər Heydər Əliyev öz çiyinlərinə götürərək və xalqımızın milli-mənəvi dəyərlərini sevərək öz varlığında yaşadıb, əməllərində bu dəyərləri müqəddəs, toxunulmaz bir xəzinə kimi qoruyub, əbədiyaşarlığını təmin edib.

Adət və ənənələrimiz bizi başqa xalqlardan fərqləndirən mühüm əlamətlərdir. Bunlar bizim yüksək mənəvi dəyərlərimiz kimi nəsillərdən-nəsillərə ötürülüb, varlığımıza hopub və bundan sonra da xalqımızın bu dəyərləri yaşadacağına əminik. Adət və ənənələrin hər bir millətin həyatında oynadığı əvəzsiz rolunu yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev "Milli adət və ənənələr hər bir xalqın milli mədəniyyətinin zənginliyindən, qədim tarixi köklə malik olmasından xəbər verir", - deyib.

Xalqımız tarixi adət-ənənələrini yaşatmaqla özünü təsdiq edib. Bayramlarımız, toylarımız, yas mərasimlərimiz İslam dininin yüksək dəyərləri xalqımızın milli-mənəvi simasıdır.

Milli-dini dəyərlərimiz də tarixən formalaşmış, cilalanaraq dövrümüzə qədər gəlib çatmışdır. Ulu öndər deyirdi: **"Azərbaycan xalqının mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız Qurani-Kərimdə öz əksini tapıbdır. Ancaq bununla yanaşı, Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar. Bu, bizim adət və ənənələrimizdir".**

Ümummilli lider Heydər Əliyev siyasi kursunun davamçısı İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində dövlətçilik ənənələri, milli ənənələri nəzərə alaraq ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatın bütün sahələrində ciddi dəyişikliklər edildi və uğurlar qazanıldı. Bu gün Azərbaycanın elm və mədəniyyəti dünyaya sürətlə inteqrasiya olunur. Bunun əsas səbəbi Heydər Əliyev Fondunun bu sahədəki yorulmaz fəaliyyətidir.

Dünyaya inteqrasiya olunduğumuz zamanda Azərbaycan milli-mənəvi dəyərləri, mədəniyyəti, incəsənəti ilə heyrət doğurur. Bu dəyərlərin əsasında xalqın tarixi köklərini, mədəniyyətini, qəhrəmanlığını, məişətini, sosial həyatını əks etdirən faktorlar dayanır. Belə bir tarixi irsin daşıyıcısı olan xalqın qürurla səhifələdiyi vərəqlər zənginləşir, Azərbaycanın dünyaya töhfələr verən abidəsi olduğunu sübut edir. Təbii ki, bu abidələr fərdlər tərəfindən milli düşüncənin məhsulu olaraq ortaya qoyulur.

Dünyada gedən qloballaşma prosesi də bizə öz mədəniyyətimizi, adət-ənənələrimizi daha geniş miqyasda təbliğ etmək, qorumaq, gələcək nəsillərə çatdırmaq kimi çox mühüm vəzifə qoyub. Biz bu şərəfli vəzifənin öhdəsindən ləyaqətlə gəlməliyik. Çünki milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adətənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir.

Məsələyə Gənc Politoloqlar Mərkəzinin sədri İlkin Əliyevin yanaşması da maraqlıdır. O qeyd edir ki, adət-ənənənin milli dəyər kimi yaşaması ailədən başlayır və cəmiyyət tərəfindən qəbul edilir, millətin, dövlətin atributinə çevrilərək gələcək nəsillər tərəfindən qorunur.

**Onun sözlərinə görə, Azərbaycan ailəsinin uzunömürlülüyü məhz bu ənənəyə söykənir:** "Ağsaqqal, ağbirçək məsləhəti gənclərin ailə qurmasında mühüm rol oynayır ki, bu da ailənin uzunömürlülüyünün əsas göstəricisidir. Dünya şöhrətli yazıçı Aleksandr Düma təsadüfi deyil ki, Azərbaycan adət-ənənələrini çox bəyənmiş və öz xatirələrində yazmışdır. Böyük rus yazıçısı Lev Tolstoy "Hacı Murad" əsərini məhz Azərbaycan adət-ənənələri əsasında yazmış, kişilik, mərdlik, namus, qeyrət, alicənablılıq və s. kimi dəyərləri yüksək qiymətləndirmişdir. Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur. Milli-mənəvi dəyərlər insanı cəmiyyətdə formalaşdıran, təkamülə aparan davranış qaydalarıdır. Bu qaydalar dünya svilizasiyasının təməli qoyulandan yaranmağa başlamışdır. Dəyərlərin formalaşması prosesi nəticədə dünyada hər bir fərdin haqlarını daha dolğun təsdiq edən xüsusiyyətlər yaranır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

**Ekspert qeyd edir ki, milli-mənəvi dəyərlər insanı cəmiyyətdə formalaşdıran, təkamülə aparan davranış qaydalarıdır:** "Bu qaydalar dünya sivilizasiyasinin təməli qoyulandan yaranmağa başlamışdır. Dəyərlərin formalaşması prosesi nəticədə dünyada hər bir fərdin haqlarını daha dolğun təsdiq edən xüsusiyyətlər yaranır. Hər bir xalqın, millətin mövcudluğu onun ana dilinə, adət- ənənələrinə, öz mədəniyyətinə, ədəbiyyatına, tarixinə bağlılığından asılıdır. Azərbaycan xalqı bu günədək məhz milli mənəvi dəyərlərinə sadiqliyi sayəsində özünün mövcudluğunu, milli özünəməxsusluğunu qoruyub saxlaya bilib. Xalqımızın ən böyük sərvətlərindən biri onun zəngin milli mədəni, maddi, ədəbi, dövlətçilik irsinə sahib olmasıdır. Bu zəngin mənəvi irs xalqımız tərəfindən əsrlər boyunca yaradılıb və onun böyük bir hissəsi bu günədək qorunub saxlanıb. Bu baxımdan, milli dövlətin formalaşması və əbədiyaşar olması onun mənəvi əsaslarının milli dəyərlərlə nə dərəcədə səsləşməsindən asılıdır".

**Təbii ki, milli dəyərlərə söykənən dövlət quruculuğu xalqın milli şüuruna, mənəvi dəyərlərinə istinad edir və gənc nəslə aşılanması ən vacib məsələlərdən biridir.**

Cavanşir QƏDİMOV

Məqalə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilib